Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim edilmişdir

Bu, Fikrət Qocadır...

50 ilə yaxındır ki, Fikrət Qocanın şeirlərini oxuyuram, bu şeirlər həyata, dünyaya, Azərbaycana, gözəlliyə, sevgiyə, təbiətə duyğularımla baş-başadır. 40 ildir ki, Fikrət müəllimlə dostam və bu dostluq həyatımın önəmli bir hissəsinə çevrilib. Bir tənqidçi-ədəbiyyatşünas kimi onun yaradıcılığına iki kitab və bir neçə məqalə həsr etmişəm və istəyirəm "Seçilmiş əsərləri"nin on cildliyi (hansı ki respublika Dövlət Mükafatına təqdim olunub) haqqında öz ürək sözlərimi də söyləyim.

Fikrət Qoca ədəbiyyata elə bir dövrdə gəlmişdi ki, nəsrimizdə də, poeziyamızda da zamanın küləkləri əsirdi. "Ellər atası" Stalinin süqutundan sonra Nikita Xruşşovun cirə ilə verdiyi demokratiyadan, söz azadlığından digər xalqların ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da bir canlanma hiss olunurdu. 60-cı illəri XX əsrdə dünyanın oyanması, köhnə qaydalara, mənəvi buxovlara, müstəmləkəçilik rejiminə qarşı mübarizələr, müharibələr dövrü kimi də səciyyələndirmək olar. Və təbii ki, ədəbiyyatda, xüsusilə poeziyada standartlara, stereotiplərə, ədəbi normalara müxalif olan yeni bir ədəbiyyat yaranırdı və yeni ədəbiyyatın qurucularından biri də Fikrət Qoca oldu.

Otaq fırlanır,
Tavan fırlanır,
Zaman fırlanır,
Yaman fırlanır.
Damarlarımda
Al qan fırlanır.

Yeni ədəbiyyat, əgər siz bununla razılaşmırsınızsa, başqa cür ifadə edək - ədəbiyyatda yeni meyillər, yeni tendensiyalar təbii ki, bədii əsərin mahiyyətini təşkil edən məzmun və formada da özünü göstərməliydi. "Zamanın fırlandığı" bir dövrdə onun sürəti, tempi ilə ayaqlaşmaq tələb olunurdu. Fikrət Qoca şair dostu Əli Kərimin bir poetik nəslin adından söylədiyi "XX əsr! Dağ, Dağ boyda bir kəlmədir...Onun yamacına mən dirsəklənib düşündüm...Köhnə şeirlərimin darısqal hücrəsindən başıma ulduz yağan qalaktikaya döndüm" misralarındakı etirafa ilkin səs verənlərdən oldu. Şeirlərinin məzmununda da, formasında da XX əsrin o tələtümlü, o inqilabi çağırışlarının nidası duyuldu. 60-70-ci illəri bu mənada Fikrət Qoca yaradıcılığının ən qızğın və nə qədər subyektiv səslənsə də, ən parlaq bir dövrü kimi səciyyələndirmək olar. Fikrin sürəti ilə zamanın sürətini, onların bir-biri ilə "rəqabətini" əks etdirən "Qatar", "Vals", hər cür mənəvi susqunluğa etiraz kimi qələmə alınmış "Cəsarət", bütün zamanlarda cəmiyyəti içindən yeyib-dağıdan bir sosial bəlaya qarşı ittihamnamə kimi səslənən "Rüşvətxorlar", milli-tarixi faciəmizi xatırladan "Dünyadan bir Araz axır", Avropada, Asiya ölkələrində, Latın Amerikasında baş verən azadlıq mübarizələrindən söz açan "Vyetnam süitası", "Viktor Xara", "Ünvansız məktub", "Amilkar Kabral" şeir və poemalarını F.Qoca məhz bu illərdə qələmə aldı. Ancaq Fikrət Qocanın həmin illərdəki poeziya uğurlarını təkcə bu əsərlərin təmsil etdiyini düşünmək yanlış olardı. Təbii ki, "siyasi lirika" kimi dəyərləndirdiyimiz o əsərlərə F.Qoca yaradıcılığının sonrakı dövrlərində də rast gəlirik. F.Qoca 90-cı illərdə də, yeni eramızın ilk onilliyində də dünyada, məmləkətimizdə baş verən ictimai-siyasi olaylara münasibətini gizlətmədi, xüsusilə azadlıq və müstəqillik ideyalarını ifadə edən şeirlər, poemalar yazdı. Amma onun poetik ruhu yalnız bir çevrə daxilində qapanıb qalmamışdır. Fikrət Qoca bizim mənəvi dünyamızın, milli duyğularımızın, yaşadığımız gerçəkliyin ən incə mətləblərinə, ən sərt həqiqətlərinə güzgü tutdu, bu güzgüdə göz yaşlarının axdığını da seyr etdik, qəlbin ən titrək, ən kövrək hisslərinin necə bəyan olunduğunu da gördük, əxlaqda, mənəviyyatda baş verən və insanları dəyərdən salan, heçə endirən boşluqlarla da üzləşdik.

Fikrət Qoca həyatın təzadlarını, insanların içindəki mənəvi burulğanları neçə belə şeirində, poemalarında əks etdirib və biz bu əsərlərdə XX əsr Azərbaycan gerçəkliyinin mənzərələrini seyr edirik. Poeziyamızda igid sərkərdələrimizi, qəhrəman oğullarımızı tərif yağışlarına bürüdüyümüz, tariximizi yalnız "şanlı" deyə epitetlərə qərq etdiyimiz bir dövrdə Fikrət Qoca az qala aforizmə çevrilən belə bir şeir yazdı:

Biri qaçaq olub,
mərd olub,
biri qoçaq olub,
mərd olub.
Biri kasıb olub,
mərd olub.
Bəs namərdlər hardandı,
bax, bu mənə dərd olub.

Fikrət Qoca insan sərrafıdır. Bütün yaradıcılığında İnsandan, onun əməllərindən (yaxşı, ya pis) söz açır. Kasıbların göz yaşı onu sıxır, incidir, qaçqınlıq faciəsini yaşayan bir gəlinin taleyinə acıyır ("Dağda sənsiz qalan yurdun, Axşam qurd olub ulayır"), bir bahar səhəri qonşuda əri tərəfindən döyülən qadının hıçqırıqlarına dözə bilmir ("Çöldə günəşli bir bahar, Mənim ürəyimdə, bir də qonşuda Payız. Soyuq bir yağış"). Belə kədərli notlar da var. Amma bu misraların müəllifi də F.Qocadır: "İnsan ölənəcən gözəldir, gözəl! İnsan ölənəcən cavan yaşayır". O, kişiliyi, mərdliyi, cəsarəti insan üçün ən dəyərli sərvət bilir.

Fikrət Qocanın şeir və poemalarında Azərbaycana, doğulduğu kəndə, sevdiyi Xəzərə, dağlara, qayalara, meşələrə, xalqın tarixi keçmişinə və bu tarixi yaşadan KİŞİLƏRƏ həsr olunan onlarla şeirləri var. Tərənnümçülükdən, şablondan və stereotipdən uzaq olan bu şeirləri oxuyanda düşünürsən ki, bunlar bir dərslikdir, poeziyanın, sənətin, Fikrət Qocanın Vətən dərsliyi. O illərdə iki yerə parçalanmış Vətəndən onlarla şeirlər yazılırdı, Fikrət Qoca da yazdı, amma necə?

Bu bölünən Vətən deyil,
Nəiməddin Fəzlullahdı,
parçalanıb iki yerə.
İki yerə parçalanıb
bədəndə ruh, ürəkdə qan.
Bir yol Azərbaycan desəm,
mən yarımcan görünərəm.
Ona görə gərək deyək:
Azərbaycan, Azərbaycan!

Vətənpərvərlik o demək deyil ki, mütləq yazdığın şeirdə Azərbaycanın adını çəkəsən, onun dağlarını, dənizini, maddi və mənəvi sərvətlərini tərənnüm edəsən. Belə şeirləri çox oxumuşuq, sanki konveyerdən eyni ölçüdə, eyni boy-buxunda dünyaya gələn belə "vətənnamələr" indi heç oxunmur.

Sığınıram Ağdaşa
Atama sığınan kimi.
Bəs yazıq Füzuli neyləsin?
Ayrı düşdü
obasından, elindən
bu az imiş
indi Kərbəlada
məzarını da alıblar əlindən.

Bu şeir başdan-ayağa Vətən duyğusu ilə köklənib.

Fikrət Qoca Vətənin böyük oğlu, ulu öndər Heydər Əliyevi çox sevirdi, bu sevginin kökündə Heydər Əliyevin sənət adamlarına böyük məhəbbəti, onları vaxtında, məqamında qiymətləndirməsi, həm SSRİ dövründə, həm də müstəqillik illərində ədəbiyyata, incəsənətə fövqəladə qayğısı dayanır. 80-ci illərdə Fikrət Qoca ölümlə, ağır xəstəliklə üz-üzə duranda Heydər Əliyevin dəstəyi ilə şair Moskvaya, müalicəyə göndərildi, xaricdən həkim çağırıldı və F.Qoca sağalıb ayağa durdu. Ulu öndərin səksən beş illiyinə həsr etdiyi "Gərək bu günləri görəydin" poeması məhz Heydər Əliyevə böyük məhəbbətdən yarandı. Poemada Heydər Əliyevin ölümündən doğan dərin bir kədər hissi ilə yanaşı, həm də onun ölməzliyindən, bu gün də xalqın mənəvi rəhbəri, dövlətçiliyimizin və müstəqilliyimizin qurucusu kimi yaşadığından söz açılır.

Biz sənə can borcluyuq,
Vətən adlı ulu can.
Hər yanda əməlin var,
Hər yanda heykəlin var.
Sabahkı günümüzdə
Yenə sənin əlin var.
Azərbaycan yüksəlir,
Dünyanın hər yerindən
Zəfər sorağı gəlir.

Poemanın epiloq hissəsindəsə F.Qoca yazır: "Böyük öndər xəstə olanda İlham Əliyevin dilindən "Ata" adlı şeir yazdım. Xalq artisti Niyaməddin Musayev ona musiqi yazdı, özü də ifa etdi, klip də çəkdirdi...Epiloq kimi bu şeiri verirəm.

Sən gedən yollara qurban kəsərdim,
Şərəfim, şöhrətim, vüqarım, ata.
Nanə yarpağı tək tir-tir əsərdim,
Qoy xəzan görməsin baharın, ata.

Qızım, balam dedi evdə gəlinə,
Övladı yaxşıya, yamana bölməz.
Atam kürəyimə vurub əlini,
Heç yerdə, heç zaman qəddin əyilməz.

Ata, gözlərinin nuruna qurban,
Öpdüm, gözüm üstə qoydum əlini.
Sənin ürəyindir sinəmdə vuran,
Kövrəltmə könlümün sarı telini.

Ata başımızın ucalığıdı,
Oğul atasının cavanlığıdı,
Ata övladının qocalığıdı...
Ata, hardasan, gəl bu gün, ata,
Gərək bu günləri görəydin, ata.

Fikrət Qoca Rəsul Rza poetik məktəbindən dərs alıb, o məktəbin ən sadiq, ən istedadlı müdavimlərindəndir desəm, yanılmaram. Rəsul Rza məktəbi isə təqlid, yamsılama, epiqonçu yetirən məktəb olmayıb, milli şeirimizə, poetik ənənələrimizə üz çevirmədən yeni, novator meyillərə səfərbər olmaq fənlərini öyrədən məktəb idi. Rəsul Rzadan həyatın, gerçəkliyin sərt həqiqətlərini, gözəlliyə, insana humanist mövqeyini mənimsəyən F.Qoca poeziyada öz fərdi üslubunu yaratdı. Onların hər ikisi Azərbaycan sərbəst şeirinin gözəl nümunələrini yaratmışlar, lakin F.Qocanın sərbəsti tamam fərqlidir.

Fikrət Qoca həmişə Azadlığı tərənnüm edib. Sovet dönəmində də, müstəqillik illərində də. O deyir ki, "azad olmaq üçün hər birimiz öz azadlığını dərk etməlidir. Mən öz içimin azadlığını anlamalıyam. Görüm içim azaddırmı? Bizdə hələ də sovet tipli insanlar var, işçisinin, tabeliyində olan kəslərin üstünə qışqırır. O, həmin adamın azadlığını içində boğur. Sabah həmin işçi də onun üstünə qışqıra bilər... İnsan öz azadlığını dərk eləyəndə orada Anarxiya ola bilməz! Anarxiya despotluğun başqa variantıdı. Qanunlar bütün gücü ilə işləyəndə Anarxiyaya yer qalmır".

Xatırlayıram onun neçə il öncə qələmə aldığı "Azadlıq şərqisi" poemasını. Bu poema Azadlıq haqqındadır, müstəqilliyimizin bizə bəxş etdiyi, həm də bizim qazandığımız Azadlıq haqqında. Nədir Azadlıq? Onu əldə edəndən sonra dünya dəyişirmi? Bütün maddi, mənəvi problemlər həll olunurmu? Bəs insanın öz ruhu necə, o azaddırmı? Poema elə bu suallara cavab verir.

Fikrət Qoca poeziyası haqqında çox yazılıb, amma içi mən qarışıq biz onun poetik kəşflərini, şeirlərindəki incəlikləri, poema janrına gətirdiyi yenilikləri lazımınca şərh etməmişik. Onun şeiri heç bir şairin indiyə kimi işlətmədiyi bədii təsvir vasitələri ilə zəngindir və təşbihlərini, metaforalarını, epitetlərini bir yerə yığsan, hamını heyrətə salan poetik bir sərgi yaranar.

Ağaclar ağlayırmı görəsən? "Çılpaq qolları tir-tir əsəndə ağaclar ağlayırmı, ürəyini boşaldırmı barı? Gecələri üzünə tutub ağlayır, ağaclar ağlamaqdan quruyur".

Yenə bir Ağlamaq səsi. Bir kişinin könlü qırılıb, təbiət buna dözmür, yağışını yağdırır. "Dünyada məhəbbət əlindən ağlayanlar olunca, Yağış yağacaq".

Qız qalasının "şəninə" onlarla, yüzlərlə epitetlər, təşbihlər söylənilib. Fikrət Qoca isə belə deyir: "Qız qalası Ələddinin Abşeronda düşüb qalmış sehrli çırağı. Zamanın əli ilə oğurlanan tariximin düşüb qalmış varağı".

Xəzərə baxırıq, bu gözəllikdən, bu mavi tamaşadan zövq alırıq və birdən Fikrət Qocanın bu misraları yada düşür:

Bərq vuran rəngləri dəyişir hər an,
Bilmirsən daş-qaşdır, ya adi sumu?
İstədim dənizdə alışıb yanan
Aydan alışdırım papirosumu.

Unutmadığımız, unuda bilməyəcəyimiz Şuşanı xatırlayırıq. "Vətən torpağının heykəli" - burda "Dumandan tökülüb qalır qayalar, Dumandan səpilir çölə çiçəklər".

Fikrət Qoca əsl məhəbbət şairidir. Məhəbbətinin cavanlığını yaşayıb, xəzan çağlarını da. Kitablardan gələn, yaşanılmayan, duyulmayan sevgi şeirləri yazmayıb, öz qəlbinin çırpıntılarını, sevincini, kədərini yazıb.

Soruşma, nə üçün sevirəm səni,
Sən də möcüzəsən, mən də möcüzə.
Niyə eyni vaxtda dünyaya gəldik,
Bu boyda dünyada gəldik üz-üzə?

Və Fikrət Qoca lirikasında İnsan məhəbbəti ən ali, müqəddəs bir duyğu kimi tərənnüm edilib:

Soyuq baxış görəndə
Gülər bir gözə baxsan,
Kiçik ürək görəndə
Dönüb dənizə baxsan,
Özünü tək sananda -
Gözəl bir qıza baxsan -
Xoşbəxt olmağa nə var.

Fikrət Qoca 86 ildir ki, bu dünyanın gözəlliklərindən zövq ala-ala yaşayır, sevinci də olub, kədəri də, amma əsl ŞAİR ÖMRÜ yaşayıb..

Vaqif YUSİFLİ,
filologiya elmləri doktoru